İmamın (ə) özünün və əhli-əyalının müsibətinə ağlayan gözləri dünya və axirətdə qəmgin eləmə. Həmçinin bizim müsibətlərimizə yanan ürəklərə rəhm elə, onları Cəhənnəm odunda yandırma. Su içərkən, Kərbəlanın susuz qurbanlarını yad edib, onlara salam və salavat göndərən kəsləri Qiyamətdə Cənnətin müqədiməsi olan Kovsər suyu ilə sirab elə.

İmam Sadiq (ə) bu duaları etdikdən sonra səcdədən başını qaldırdı. Mən ona dedim: Ey movlam! Bu duanı sizdən eşitdikdən sonra qəlbimdə həcdən çox Kərbəlanı ziyarət etmək arzusu yarandı. O, buyurdu: Ey Müaviyə! Səni kim saxlayıb və sənə kim mane olur ki, o böyük şəxsi ziyarət etmirsən? Dedim: Allah məni sənə fəda etsin! Onun ziyarətinin bu qədər fəzilətli olduğunu bilmirdim.

İmam (ə) buyurdu: Ey Müaviyə! O həzrəti ziyarət edənlərə göydə daha çox dua edərlər, nəinki yerdə. O ziyarətçilərə Peyğəmbər (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və digər imamlar (ə) dua edərlər. Sən istəməzsən ki, o kəslərdən olasan ki, Qiyamətdə mələklər başları üstündə dolanıb onları mühafizə etmiş olsun?

İstəməzsən ki, məhşərə günahlardan təmizlənmiş halda gələsən?

Məgər istəməzsən ki, o kəslərdən olasan ki, onun şəfaətçisi babam Peyğəmbər (s) özü olsun?

risalət elmini bizə verib və bizi Peyğəmbərin (s) varisi qərar vermisən və keçmiş ümmətləri bizimlə xətm etmisən. Keçmiş və gələcək elmləri bizə əta etmisən və bizim vilayətimizi insanlara vacib buyurmusan.

Səndən istəyirəm babam İmam Hüseynin (ə) məzari-şərifini ziyarətə gələnləri əfv et. Onların günahlarını bağışla. O kəslər ki, evlərindən, yurd-yuvalarından çıxıb ziyarət məqsədi ilə səfərin hər bir əzab əziyyətinə qatlaşaraq var-dövlətindən və canlarından keçirlər, onlara bizim tərəfimizdən mükafat əta elə.

Bütün müşkül işlərini həll etməklə onları istəklərinə çatdır. Bu yolda nə qədər xərc etsələr, birə min əvəzini ver. Evdə əhli-əyalını valideynlərini və övladlarını yerin və göyün bəlalarından qoru.

Özünü də hər növ xəta-bəladan uzaq, öz amanında saxla, öz evlərinə sağ-salamat getmələrinə kömək et. Özünü və ailəsini insanların vəsvəsələrindən və şeytanın şərrindən uzaq elə. Onların qohum-qardaşlarına və vilayətlərində yaşayan saleh bəndələrə əmin-amanlıq əta et.

O kəslərin ki, ürəklərində babam Hüseynin (ə) eşqi var və onun qəbrini ziyarət etmək eşqindədirlər, lakin maneçilik üzündən ziyarət edə bilmirlər o maneləri tezliklə aradan apar.

Hüseynin (ə) ziyarətinə tərəf istiqamətlənən və onun məzarına sürtünən üzləri Qiyamətdə şəfaət müjdəsi ilə ağ və gülərüz elə.

Bilmirsən ki, Allah Məkkəni hərəm götürməzdən əvvəl Kərbəlanı hərəm, əmin və mübarək yer olaraq götürmüşdür?

İmam Zeynülabidin (ə) buyurur: "Allah Kərbəlanı əmin yer və mübarək məkan etmişdir. Allah yer üzünü silkələyəndə onu yaydı və ucaltdı, onun torpağını nurlu və saf etdi. Onu Cənnət bağlarından da üstün bağ etdi və onu Cənnətdə ən üstün məskən etdi.

Orada peyğəmbərlərdən və mürsəllərdən başqa kimsə sakin olmaz. Ulduzlar yer əhli üçün parlaqlı olduğu kimi ora da Cənnət bağçaları içərisində gül saçır. Kərbəlanın nuru cənnət əhlinin hamısını bürüyür və deyər: mən Allahın müqəddəs, pak və mübarək yeriyəm hansı ki, şəhidlərin böyüyünü və cənnət cavanlarının rəhbərini özümdə saxlamışam"[1].

Müaviyə bin Vəhəb rəvayət edir: "Bir gün İmam Cəfər Sadiqin (ə) xidmətinə getmişdim, gördüm o həzrət namaz qılmaqla məşğuldur. Onun namazı bitirməsini gözləmək üçün oturdum.

İmam (ə) namazı bitirdikdən sonra münacat etməyə başladı. O, Allaha belə dua edirdi: Allahım! Biz Əhli-beytə kəramət əta etmisən, Qiyamətdə ümmətin şəfaətini bizə vədə vermisən,

---

1. İbn Qələveyh, Kamilüz-ziyarət, səh-451, hədis № 678, Əllamə Məclisi, Biharül-ənvar, cild 101, səh-108, Əllamə Nuri, Müstədrəkül-vəsail, cild X, səh-323, Hürr Amili, Vəsailüş-şiə, cild XIV, səh-515.

İmam (ə) buyurdu: İraqda Kufə şəhərində al. Onun yanında bir qəbir vardır ki, bəlaya giriftar olan oraya gəlmişlər. Bu Kərbəladakı İmam Hüseynin (ə) qəbridir.

Əlinin (ə) qəbri yanında ona qonşu olmaq 700 illik ibadətdən, Hüseynin (ə) qəbrinə qonşu olmaq isə 70 illik ibadətdən üstündür"[1].

İmam (ə) digər bir hədisində isə buyurur: "Kərbəlada Hüseynin (ə) yanında qalmağın bir günü min ayın ibadət və əməllərinə bərabərdir"[2].

İmam Zeynülabidin (ə) buyurur: "Mən Kərbəlada atam Hüseynin (ə) qəbri kənarında olanda sanki möhtəşəm qəsrlərdəyəm... Ravi İmama (ə) dedi: orada qalan şəxsə nə mükafat var? Həzrət buyurdu: Hər günü min aya bərabərdir.

Ravi yenə dedi: bəs oranı ziyarət üçün xərc çəkən və orada gəlib xərcləyən üçün nə mükafat var? İmam (ə) buyurdu: bir dirhəm min dirhəm əvəzidir"[3].

"İmam Sadiq (ə) ona qonaq olmuş şəxsə dedi: sən Hüseyni (ə) ziyarət edirsənmi? Qonaq dedi: onu üç ildə bir dəfə ziyarət etmişəm. İmam (ə) üzü qəzəb halını aldı və həmin şəxsə dedi: and olsun Allaha! Hansı ki, ondan başqa Allah yoxdur, Kərbəlanı ziyarət etsəydin bu sənin üçün daha xeyirli olardı.

---

1. Əllamə Hairi, Dairətül-məarif, cild XV, səh-139.
2. Ibid.
3. Ibid, səh-140.

Deməli Yezid İmam Hüseyni (ə) öldürtməklə özünü əbədi ilahi əzaba düçar etmişdir. Peyğəmbər (s) buyurur:

"Cənnət mənim Əhli-beytimə zülm edənə və ailəmə əziyyət edənə haram olmuşdur. Hər kəs Əbdülmüttəlib övladlarından birinə yaxşılıq etsə, amma mükafatlanmasa, Qiyamət günü mən Rəbbimlə görüşəndə onu mükafatlandıracağam"[1].

**Kərbəla ziyarətinin savabı**

Peyğəmbər (s) Hüseynə (ə) dedi: "Ey oğlum! Cəbrail (ə) mənə xəbər gətirdi ki, məndən sonra səni qətl edib bədənini parçalayacaqlar. Hüseyn (ə) dedi: Babacan! Bizim qəbirlərimizi ziyarət edənlər üçün nə səvab vardır?

Peyğəmbər (s) buyurdu: Oğlum! Ümmətimdən hər kəs sizi ziyarət etsə, sizə əl sürtsə, mənə vacibdir ki, Qiyamət günü gəlib onu ziyarət edim, onu qiyamətin dəhşətli əhvalından xilas edim və onu Cənnətdə sakinləşdirim"[2].

Hədisdə deyilir: "Bir şəxs İmam Sadiqin (ə) yanına gəlib Məkkədə mal-mülk alıb ora köçmək istədiyini dedi. İmam (ə) ona buyurdu: bunu etmə.

Çünki Məkkə əhli açiq-aşikar Allaha qarşı küfr edirlər. Ravi dedi: Əgər belədirsə, Mədinədə alımmı? İmam (ə) dedi: onlar məkkəlilərdən də pisdirlər. Ravi dedi: bəs harada məskən salım?

---

1. Carullah Zəməxşəri, Təfsirul-Kəşşaf, cild IV, səh-213.
2. Əllamə Hairi, Dairətül-məarif, cild VIII, səh-251, Əllamə Məclisi, Biharül-ənvar, cild 101, səh-148.

Təəssüflər olsun ki, bu növdən olan hədislər bəzi insanların təfəkküründə çaşqınlıq yaratmış və nəticədə onlar əzəli ilahi elmlə cəbəriyyə əqidəsini bir- birlərinə qarışdırmışlar.

Çünki cəbəriyyə əqidəsinə görə insan ixtiyar sahibi deyil, o nə edirsə, ilahi yazı əsasında edir. Hətta insanın günah etməsini Allah tərəfindən olduğunu iddia edən cəbərilər Kərbəla hadisəsində Yezidin bu işi özbaşına deyil, ilahi təqdir əsasında etdiyini deyirlər.

Bu əqidə isə əlbəttə ki, həqiqi islam əqidəsi deyil və ola da bilməz. Çünki hər şey bu əqidə sahiblərinin dedikləri kimi olsaydı, onda Allahın bu qədər peyğəmbərlər və kitablar göndərib insanları pis yoldan çəkindirib doğru yola çağırmasının nə mənası olardı?

Əgər onların əqidəsi doğru olsaydı, onda bütün günahların hamısı qanuniləşmiş olardı və bununla da günahkarlar üçün nəzədrdə tututlmuş ilahi əzab öz əhəmiyyətini itirərdi. Necə ki, Yezid və onun tərəfdarları bu əqidəni dəstəkləməklə özlərini "təmizə" çixardırdılar.

Halbuki Qurani-Kərim buyurur: **"Kim zərrə qədər yaxşı iş görsə, onun xeyrini görəcəkdir. Kim zərrə qədər pis iş görsə, onun zərərini görəcəkdir"[1].**

1. əl-Zilzal-7-8.

Bundan başqa digər sünnü qaynaqlarında Hüseynin (ə) Fərat sahilində, Kərbəla çölündə şəhid ediləcəyi və Peyğəmbərin (s) ona ağlayıb göz yaşı tökməsi haqqında hədislər vardır[1].

İbn Həcər əl-Heytəmi Aişədən rəvayət edir: "Peyğəmbər (s) buyurdu: Cəbrail (ə) mənə xəbər verdi ki, oğlum Hüseyni (ə) məndən sonra Tif adlı çöldə qətlə yetirəcəklər. Bu torpağı mənə gətirdi və xəbər verdi ki, bu onun yatdığı yer olacaqdır"[2].

Bu və ya buna bənzər bir çox hədisi-şəriflərdən bəlli olur ki, Kərbəla hadisəsinin baş verməsi qabaqcadan Allah tərəfindən Peyğəmbərə (s) xəbər verilmişdir. Deməli, bu hadisənin törədilməsi əzəldən ilahi elmdə təsbit olunmuş və Allah əhatəli elmi ilə bunu əvvəlcədən bilmişdir. Necə ki, Quran buyurur:

**"O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onun elmi göyləri və yeri əhatə etmişdir"[3].**

Amma bu hədislərin mənası o demək deyildir ki, Kərbəla hadisəsi Allah tərəfindən yazılmış və ondan qaçmaq heç cürə mümkün deyildir.

---

1. Bax: İbn Əbi Şeybə, Musənnəf, cild VII, səh-477-478, hədis № 37366, Müsnədi-Bəzzar, cild III, səh-101, Müsnədi-Əbi Yəla, cild I, səh-298, Təbərani, Möcəmül-kəbir, cild III, səh-105, Hakim Nişapuri, əl-Müstədrək alə səhiheyn, cild III, səh-194.
2. əs-Səvaiqül-mühriqə, səh-292.
3. Bəqərə-255.

Peyğəmbər (s) buyurur: “Hər kəs Həsən (ə) və Hüseynə (ə) nifrət edərsə, Qiyamətə üzünün əti tökülmüş halda gələcək və o, şəfaətimə nail olmayacaqdır”[1].

Əli (ə) buyurur: “Həsən (ə) və Hüseyn (ə) Peyğəmbərin (s) iylədiyi reyhandır”[2].

**Hədisi-şəriflərdə Kərbəla hadisəsi**

Məşhur islam alimi Əhməd bin Hənbəl rəvayət edir: “Əli (ə) Süffeyn döyüşünə gedərkən Kərbəla ərazisində dayandı. O, buranın hara olduğunu soruşduqda dedilər: bura Neynəvadır.

Əli (ə) dedi: səbr et ey Əba Ədillah! Səbr et ey Əba Əbdillah! Ona dedilər: nə baş verir? O, dedi: bir gün Peyğəmbərin (s) yanına daxil oldum və onu gözü yaşlı gördüm.

Dedim səni kim qəzəbləndirib ki, gözlərindən belə yaş gəlir ya Rəsulallah? Dedi: Cəbrail (ə) mənim yanımda idi. O, mənə dedi ki, Hüseyni (ə) Fəratın sahilində öldürəcəklər.

Onun türbəsindən iyləmək istəyirsənmi? Dedim: bəli. O, əlini uzadıb o torpaqdan götürdü mənə verdi. Buna görə gözlərim yaşarıb”[3].

---

1. İbn Qələveyh, Kamilüz-ziyarət, səh-115, hədis № 122, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-270
2. Ibid, hədis № 124, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-270.
3. Müsnədi-Əhməd, cild I, səh-86, hədis № 648, Hənbəli Muqəddəsi, əl-Əhadisil-Muxtarə, Məkkə çapı, cild II, səh-375, hədis № 758, Məcməüz-zəvaid, cild IX, səh-187

Əbu Zər əl-Qəffari nəql edir: “Peyğəmbər (s) mənə Həsən (ə) və Hüseyni (ə) sevməyi əmr etmişdir. Mən də onların ikisini çox sevirəm və onları sevənləri də çox sevirəm. Çünki Peyğəmbər (s) onların ikisini çox sevərdi”[1].

Həmçinin Əbu Zər rəvayət edir: “Peyğəmbəri (s) Həsən və Hüseyni öpən gördüm. O, dedi: hər kəs Həsən (ə) və Hüseyni (ə) və onların övladlarını sevsə, Cəhənnəm onun üzünü yandırmaz, hətta onun günahı saysız-hesabsız olsa belə. Amma bu şərtlə ki, onun günahları onu imandan xaric etməmiş olsun”[2].

Abdullah bin Məsud rəvayət edir: “Peyğəmbərdən eşitdim ki, deyirdi: hər kəs məni sevirsə, bu iki oğlumu sevsin. Çünki Allah mənə bunları sevməyi əmr etmişdir”[3].

İmam Sadiq (ə) buyurur: “ Peyğəmbər (s) buyurmuşdur: hər kəs Allahın Quranda dediyi möhkəm ipdən yapışmaq istəyirsə, Əbu Talib oğlu Əlini (ə) özünə rəhbər tutsun, Həsən (ə) və Hüseyni (ə) isə sevsin. Çünki Allah öz ərşinin üstündə onları sevmişdir”[4].

---

1. İbn Qələveyh, Kamilüz-ziyarət, səh-113, hədis № 118, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-269.
2. Ibid, səh-114, hədis № 119, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-269.
3. Ibid, səh-113, hədis № 120, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-270.
4. Ibid, səh-114, hədis № 121, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-270.

Peyğəmbər (s) digər bir hədisində buyurur: "Həsən (ə) və Hüseyn (ə) Cənnət cavanlarının ağasıdır"[1].

Peyğəmbər yenə buyurur: "Hüseyn (ə) məndəndir, mən də Hüseyndənəm(ə). Hüseyni (ə) sevən hər kəsi Allah sevmişdir"[2].

Həmçinin buyurub: "ey Əli! Həqiqətən Həsən (ə) və Hüseyn (ə) mənim zehnimi çox məşğul edirlər. Mən onlardan başqa heç kimsəni bu qədər sevmirəm. Çünki Rəbbim mənə əmr etmişdir ki, onları və onları sevəni sevim"[3].

Həzrət digər bir hədisində buyurur: "Hər kəs Həsən və Hüseyni sevsə, məni sevmişdir. Hər kəs onları qəzəbləndirsə, məni qəzəbləndirmişdir"[4]

İmran bin Həsin rəvayət edir: "Peyğəmbər (s) mənə dedi: Ey İmran! Həqiqətən hər bir qəlbin bağlı olduğu bir şey vardır. Mənim də qəlbim bu iki oğlana  bağlıdır. Dedim:ey Rəsuləllah! Qəlbinin hamısımı bunlara bağlıdır? Dedi:ey İmran! Onlara olan sevgimin əksəriyyətin səndən gizlədirəm. Allah mənə əmr etmişdir ki, bunları sevim"[5].

---

1. Hürr Amili, Vəsailüş-şiə.
2. İbn Qələveyh, Kamilüz-ziyarət, səh-116, hədis № 125, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-261.
3. İbn Qələveyh, Kamilüz-ziyarət, səh-112, hədis № 116, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-269.
4. Əbulqasim Təbərani, Möcəmül-kəbir, ikinci nəşri, 1404/1984, cild  III, səh-48, hədis № 2645.
5. İbn Qələveyh, Kamilüz-ziyarət, səh-113, hədis № 117, Əllamə Məclisi, Biharül-ənvar, cild 43, səh-269.

İmam (ə) buyurdu: yalan deyirlər. Bu ayə bizim, xüsusilə də Əhli-beytin (ə) Əlinin (ə), Fatimənin (ə), Həsənin (ə) və Hüseynin (ə) haqqında nazil omuşdur”[1].

İmam Hüseynin (ə) fəzilətlərinə işarə edən ayələrdən biri də **“Hamınız bir yerdə Allahın ipindən möhkəm yapışın, bir-birinizdən ayrılmayın”**[2] ayəsidir.

Bu ayədə məqsədin Əhli-beyt (ə) olduğunu görkəmli islam alimləri Sələbi “Təfsiru-Sələbi” əsərində, İbn Həcər əl-Heytəmi isə “əs-Səvaiqül-mühriqa”[3]

əsərində İmam Sadiqdən (ə) rəvayət edirlər: “Biz Allahın ipiyik ki, bizim haqqımızda, **«Hamınız Allahın ipindən möhkəm yapışın, bir-birinizdən ayrılmayın»** demişdir”.

Bu ayədən belə məlum olur ki, İmam Hüseyn (ə) digər imamlarla (ə) birlikdə yer üzündə Allahın möhkəm ipidir və ondan yapışmadan nicata yetişmək mümkün deyildir.[4]

Peyğəmbər (s) buyurur: “Həsən və Hüseyn dünyada mənim iylədiyim iki reyhandır”[5].

---

1. Təfsiru nurüs-səqəleyn, cild IV, səh-572, hədis № 65.
2. Ali İmran -103.
3. səh-233.
4. Daha geniş məlumat üçün bax: İbrahim Quliyev, Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi, Bakı, nurlar, 2012, Kərbəla fəslinə.
5. Səhihi-Buxaridə nəql olunub.

İbn Həcər adı çəkilən əsərində belə bir hədis də nəql edir: "Əli (ə) Peyğəmbərin (s) yanına daxil oldu. Peyğəmbər (s) ayağa qalxıb onu qarşıladı, alnından öpdü və sağ tərəfində oturtdu.

Abbas Peyğəmbərə (s) dedi: onu çox istəyirsənmi? Həzrət buyurdu: ey əmi! And olsun Allaha! Allah onu məndən çox istəyir. Allah bütün peyğəmbərlərin (s) zürriyyətini onların öz bellərindən, mənim zürriyyətimi isə Əlinin (ə) belindən qərar vermişdir"[1].

İmam Hüseynin (ə) haqqında nazil olmuş ayələrdən biri də **"Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir de ki: mən sizdən bunun [risaləti təbliğ etməyimin] müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm.."**[2] ayəsidir.

Bütün təfsir və hədis əhlinə görə bu ayədə məqsəd Peyğəmbərin (s) yaxın qohumları olan Əliyə (ə), Fatiməyə (ə), Həsənə (ə) və Hüseynə (ə) məhəbbət göstərib onları sevməkdir.

Bu ayə təfsirçilərin yanında "Məvəddət" ayəsi kimi tanınır. Bu ayənin təfsiri haqqında Əllamə Hüveyzi belə rəvayət edir: "İsmail bin Əbdülxaliq İmam Sadiqə (ə) dedi: Bəsrə əhli bu ayə haqqında deyir ki, qohumluq məhəbbəti dedikdə, Peyğəmbərin (s) qohum-əqrəbası nəzərdə tutulur.

---

1. əs-Səvaiqül-mühriqə, səh-239.
2. əş-Şura-23.

İbrahimin (ə) qəlbi bu hadisədən qəmgin oldu və o, buna ağladı”[1].

İmamın (ə) fəzilətinin ali olduğunu isbat edən ayələrdən biri də **“Sənə göndərilən bilikdən sonra buna dair səninlə mübahisə edənlər olsa, onlara de ki: gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı: biz də qadınlarımızı, siz də qadınlarınızı: biz də özümüzü siz də özünüzü çağıraq! Sonra Allahdan yalvarıb yalançılara lənət etməsini diləyək!”**[2].

Bu ayə haqqında İbn Həcər əl-Heytəmi Carullah Zəməxşəridən nəqlən deyr: “Əhli-beytin fəzilətinə bundan güclü dəlil tapmaq mümkün deyildir. Onlar Əli, Fatimə, Həsən və Hüseyndir (ə).

Bu ayə nazil olduqda Peyğəmbər (s) Hüseyni qucağına alıb, Həsənin (ə) də əlindən tutdu. Fatimə (ə) və Əli (ə) də onun ardınca gedirdi. Buradan məlum olur ki, ayədə məqsəd onlardır və Fatimənin (ə) övladları və onların zürriyyətləri Peyğəmbərin (s) övladı hesab olunur, ona nisbət verilirlər[3].

---

1. Əllamə Hüveyzi, Təfsiru nurüs-səqəleyn, cild IV, səh-429-430.
2. Ali-İmran-61.
3. əs-Səvaiqül-mühriqə, səh-238, Carullah Zəməxşəri, Təfsirul-Kəşşaf, cild I, səh-361-362, Əhməd bin Əli əl-Cəssas,Əhkamul-Quran, cild II, səh-18-19, əl-Qazi Nəsruddin Beyzavi, Təfsiru-Beyzavi, cild I, səh-163, Məhəmməd bin Əhməd əl-Qurtubi, əl-Camiul-Əhkamil-Quran, cild II, səh-67, Hakim əl-Həskani, Şəvahidüt-tənzil, cild I, səh-123-124, hədis № 170-171.

İmam Hüseynin (ə) üstünlüklərini bizə çatdıran ayələrdən biri də **“Biz ona böyük bir qurbanlıq əvəz verdik”**[1] ayəsidir.

Bu ayəni izah edən İmam Rza (ə) buyurur: “Allah İbrahimə (ə) oğlu İsmailin (ə) əvəzində ona nazil etdiyi qoçu kəsməyi əmr etdikdə, İbrahim (ə) Allahdan təmənna etdi ki, oğlu İsmail (ə) qurban kimi kəsilsin, çünki ona qoç kəsmək yox, oğlunu kəsmək əmr olunubdur. Allah ona belə vəhy etdi: Ey İbrahim! Yaratdıqlarım içində sənə ən çox sevimli olan kimdir?

İbrahim (ə) dedi: Ey Rəbbim! Yaratdıqların içində mənə ən sevimli olan həbibin Məhəmməddir (s). Allah vəhy edərək dedi: sənə o çox sevimlidir yoxsa öz canın?

İbrahim (ə) dedi: O, mənə canımdan da sevimlidir. Allah vəhy etdi: sənə onun övladı sevimlidir yoxsa  sənin öz övladın?

İbrahim (ə) dedi: onun övladı. Allah vəhy etdi: onun övladını onun düşmənləri zülmlə başını kəsərlər, onun öldürülməsi sənin qəlbini ağrıdır yoxsa oğlunun qurban kəsilməsi? İbrahim (ə) dedi: ey Rəbbimin onun zülmlə kəsilməsi mənim qəlbimi daha ağrıdır. Allah dedi: ey İbrahim! Məhəmmədin (s) ümmüətindən bir dəstə ondan sonra onun oğlu Hüseyni (ə) zülm və düşmənçiliklə qoç kəsən kimi kəsərlər.

---

1. əs-Saffat-107.

O, dedi: deyin: Allahummə salli alə Muhamməmədin va ali Muhhəmməd- Allahım Məhəmməd və onun ailəsinə salavat və salam göndər”[1].

Bu hədisin oxşarını Buxari də nəql etmişdir. O, deyir: Kəb bin Ucrə nəql edir: “deyildi: ey Allahın Rəsulu! Sənə salam göndərməyi bilirik, bəs sənə salavatı necə verək?

Peyğəmbər (s) buyurdu: deyin: Allahummə salli alə Məhəmmədin va alə ali Məhəmməd, kəma salleytə alə ali İbrahim, innəkə həmidun məcid, Allahummə barik alə Məhəmmədin va alə ali Məhəmməd, kəma barəktə alə ali İbrahim, innəkə həmidun məcid”[2].

İmamın (ə) fəzilət və üstünlüklərinə çatdıran ayələrdən biri də **“Onları yubadıb saxlayın, çünki sorğu-sual olunacaqlar”**[3] ayəsidir. Bu haqda İbn Həcər[4], Əllamə Huveyzi[5] və digər hədis və təfsir alimləri Peyğəmbərdən (s) rəvayət edirlər: “Bu ayənin mənası Əli bin Əbi Talibin (ə) və Əhli-beytin (ə) vilayəti barəsində sorğu-sual olunacaqlar deməkdir”.

---

1. əs-Səvaiqül-mühriqə, səh-225-226.
2. Səhihi-Buxari, səh-844, kitabut-təfsir, hədis № 4797.
3. əs-Saffat-24.
4. əs-Səvaiqül-mühriqə, səh-229.
5. Təfsiru nurüs-səqəleyn, cild IV, səh-29.

Bütün təfsir əhlinə görə bu ayə təthir ayəsi kimi tanınır və Peyğəmbərə (s) zövcəsi Ümmü Sələmənin evində nazil olmuşdur. Bu haqda Müslüm bin Həccac ən-Nişapuri rəvayət edir:

"Ümmü Sələmə deyir: bu ayə mənim evimdə nazil olmuşdur. Ayə nazil olanda Əli, Fatimə, Həsən və Hüseyn (ə) Peyğəmbərin (ə) dövrəsinə toplaşmışdılar. Mən də qapının astanasında oturmuşdum.

Peyğəmbər (s) onları əbanın altına alıb dedi: Allahım bunlar mənim Əhli-beytimdir. Dedim: ey Allahın Rəsulu! Mən də ora daxil olum? Dedi: sən yerində qal, sən xeyir üzərindəsən."[1]

Quranda İmam Hüseynin (ə) fəzlətlərinə işarə edən ayələrdən biri salavat ayəsidir. Allah buyurur:

**"Həqiqətən Allah və mələkləri Peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərib, layiqincə salamlayın!"**[2]

İbn Həcər bu ayənin Peyğəmbərin (s) Əhli-beyti (ə) haqda nazil olması haqqında xeyli hədis nəql etmişdir.

O, deyir: Kəb bin Ucrə belə rəvayət edir: " Bu ayə nazil olduqda, Peyğəmbərə (s) dedik: Ey Allahın Rəsulu! Sənə necə salam göndərək?

---

1. Səhihi-Müslüm, cild VII, səh-130, Əhməd bin Hənbəl, Musəd, cid I, səh-330, Tirmizi, Sünən, cild V, səh-351, Hakim Nişapuri, əl-Mustədrək, cild III, səh-133, Təbərani, Mucəm, cild III, səh-48, Buxari, Tarixul-Kəbir, cild VIII, səh-187, İbn Həcər əl-Heytəmi, əs-Səvaiqül-mühriqə, səh-221.
2. əl-Əhzab-56.

Nəql olunur: Peyğəmbər (s) bunu dedikdə, Allah bu ayəni endirdi: “**Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı təbliğ et. Əgər bunu etməsən Allahın risalətini (sənə həvalə etdiyi peyğmbərliyi) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Allah küfr əhlini düz yola yönəltməz!**”[1].

Bu ayə Əlinin (ə) imamətini isbat etməklə yanaşı, imamətin xüsusi önəm daşıdığını və islam ümmətinin imamsız təsəvvür olunmadığını diqqətə çatdırır. Hüseyn (ə) də bu imamət nurunun bir ulduzu olmaqla yanaşı, Əlinin (ə) övladıdır.

Həmçinin o, dünya və axirət xanımlarının rəhbəri Fatimənin (ə) oğludur.

İmam Sadiq (ə) buyurur: “Peyğəmbər (s) Fatiməni çox öpərdi. Bunu görən Aişə ona etiraz etdikdə Həzrət buyurdu: ey Aişə! Mən göylərə merac edəndə Cənnətə daxil oldum. Orada Cəbrail (ə) məni yanına çağırıb Tuba ağacının meyvəsindən yedirtdi. Ondan belimdə bir şeylər əmələ gəldi ki, yer üzünə qayıtdıqdan sonra Xədicə Fatiməyə (ə) hamilə oldu. Mən onu öpdükdə Tuba ağacının ətrini duyuram”[2].

Bundan əlavə o, Əhli-beytdən olmaqla xüsusi üstünlük və fəzilətə malikdir. Quran buyurur: **“Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istəyir**”[3].

---

1. Şəvahidüt-tənzil, cild I, səh-187, hədis № 243 .
2. Əllamə Hüveyzi, Təfsiru nurüs-səqəleyn, cild III, səh-131, hədis № 49.
3. əl-Əhzab-33.

Əvvəla, qeyd etmək lazımdır ki, Allah Qurani-kərimdə "Və ləyalin aşr-And olsun on gecəyə"-ayəsi bəzi təfsir əhlinə görə məhərrəm ayının ilk on gününə içilən anddır.

Həmçinin Quranda Allahın nişanələrinə hörmət etmək təqvadan irəli gələn bir hal kimi qiymətləndirilmiş,[1] Peyğəmbərə (s) Allahın günlərinin qeyd edilməsini müsəlmanlara bildirilmişdir.[2]

İmam Hüseynin (ə) şəhadəti ibrətamiz hadisələrlə dolu olmaqla yanaşı, dinimizin qorunub saxlanması və zalımlara qarşı peyğəmbərlərin apardıqları mübarizələrin davamı və son nöqtəsi deyilmi?

İmam Hüseyn (ə) haqqında kifayət qədər Qurani-kərim ayələri nazil olmuş və əziz Peyğəmbərimizin (s) mübarək dilində ümmətə əmanət olaraq buraxılmış bir şəxsdir. Bunu biz aşağıdakı ayə və hədislərdə də görürük.

**Qurani-kərimdə İmam Hüseynin (ə) fəzilətləri**

Görkəmli islam alimi Hafiz əl-Həskani səhih bir sənədlə Maidə surəsinin 67-ci ayəsinin Əlinin (ə) imaməti haqqında nazil olduğunu rəvayət edir:

"Peyğəmbər (s) dedi: "Mən meraca gedəndə Ərşin altında eşitdim ki, deyilirdi: Əli (ə) hidayət bayrağı və mənə sığınanların sevimlisidir, Ey Məhəmməd! Bunu ümmətinə çatdır.

1. Həcc, 32.
2. İbrahim, 5.

# Aşura mərasimləri, mənəvi dəyər kimi

Dr. İbrahim Zöhrab oğlu Quliyev (Azərbaycan)[1]

**Alınan tarix**: 19/02/2016 **qəbul tarixi**: 05/11/2016

**Məqalənin Xülasəsi**

Məqalədə Aşura qiyamının əzəməti, hədədfləri və mahiyyəti, Qurani-kərim və hədislərdə İmam Hüseynin (ə) fəzilətləri, Kərbəla ziyarətinin əhəmiyyəti haqda məlumat verilir. Həmçinin, Aşura mərasimlərinin fəlsəfəsi, onun xalqımızın mənəvi dəyəri olması barədə danışılır.

**Açar sözlər**: mərasimləri, Aşura, mənəvi dəyər

## Müqəddimə

Aşura müsəlman təqvimi ilə məhərrəm ayının onuncu günüdür. Bu gün imam Hüseynin (ə) şəhadəti ilə əlaqədar olaraq müsəlmanların matəm günüdür.

Təəssüflər olsun ki, bəzən Aşura mərasiminin keçirilməsinə etiraz edən insanlar bu günün əhəmiyyətli bir gün olduğunu yaddan çıxarmışlar. Biz bu kiçik məqaləmizdə Aşuranın mahiyyəti, onun keçirilmə səbəbləri və dəlilləri haqqında kiçik araşdırma aparmaq istəyirirk.

Belə ki, ilk öncə imam Hüseynin (ə) islamdakı kimliyini ortaya qoymaq, daha sonra isə onun şəhadətilə əlaqədar bəzi məqamlara aydınlıq gətirmək istərdik.

---

1. Fəlsəfə üzrə fəlsəfə doktoru, Bakı İslam Universitetinin müəllimi, Bakı, Azərbaycan, *quliyev.ibrahim.78@mail.ru*

## İstifadə olunmuş mənbələr


1. Qurani-KərimAyətullah Şuştəri, «Xəsaisül-Hüseyniyyə»
2. İbn Abbas Maliki, «Fusulül-mühimmə»
3. İbn Quteybə, «Əl-İmamətü vəs-siyasə»
4. İbn Əbil Hədid, «Nəhcül-bəlağənin şərhi»
5. İbn Əbu Rabbuh, «Əqdül-fərid»
6. İbn Cövzi, «Sifətüs-səfvə»
7. İbn Əsir, «Usdül-ğabə»
8. İbn Səd, «Tərcümətül-imamul Hüseyn (ə)»
9. İbn Abdullah, «Əl-istiyab»
10. İbn Şəhr Aşub, «Mənaqib”
11. Hürr Amili, «Vəsailüş-şiə»
12. Hürr Amili, «Vəsailüş-şiə»
13. «Tarixi-İbn Əsakir»
14. «Tarixi-Yəqubi»
15. «Təfsiri-Əyyaşi»
16. Təbəri, «Əl-İhticac»
17. Əllamə Məclisi, «Biharül-ənvar»

Müaviyə, bu fikrindən əl çək! Sənin xalqa rəva gördüyün bu qədər zorakılıq, əzab əziyyət və işgəncələr bəs etmədimi ki, yeni bir zülmün, fəsadın təməlini qoymaq niyyətindəsən?! Qiyamət günü Allaha necə cavab verəcəksən?

And olsun Allaha ki, sən bundan artıq istibdad yolunda irəliləməyə, Allah bəndələrinə təcavüz etmək üçün ifrata varmağa nail olmayacaqsan. Çünki daha səbir kasamız dolub və səninlə ölüm arasındakı fasilə bir göz qırpımı qədərdir...»[1]

z-Misirli alim Mahmud Əqqad deyir: «Şücaət» kimi ilahi xüsusiyyətləri Hüseyn (ə) tək əzəmət sahibində görmək, heç də təəccübləndirici deyildir. Hüseyndə (ə) şücaət axtarmaq, qızıl mədənində qızıl axtarmaq kimidir.»[2]

---

1. «Tarixi-Yəqubi», c. 2, səh. 228; İbn Quteybə, «Əl-İmamətü vəs-siyasə», c. 1, səh. 174; Təbəri, «Əl-İhticac», səh. 161; İbn Əbil Hədid, «Nəhcül-bəlağənin şərhi», c. 18, səh. 209; Əmini, «Əl-qədir», c. 1, səh. 198.
2. «Əbüş-şühəda», səh. 71.

İmama (ə) böyük ehtiram və saygı göstərən Müaviyə xeyli yaltaqlandıqdan sonra Yezidi tərifləyərək, əsl niyyətini açıqladı.

Həzrət Hüseyn (ə) onun sözünü kəsib, öncə Peyğəmbər (s) və Əhli-beytin (ə) fəziləti haqqında söhbət etdi. Sonra isə buyurdu: «Yezidə beyət etməyimi istəyirsən? Heç vaxt mümkün deyil! Heç bir zaman ola bilməz! Ey Müaviyə, sübh olduqda qara kömür rəngi ilə rüsvay olar. Günəş parladıqda zəif işıqlar xasiyyətini itirər. Sən özünü və Yezidi tərifləməklə həddən ziyadə ifrata vardın. Sən zalım, paxıl və təcavüzkar adamsan. Sən heç vaxt haqq sahiblərinin haqqını vermədin, amma şeytan səndən öz payını tam olaraq aldı.

Mən oğlunu tərifləməyindən belə nəticə aldım ki, onu hakimiyyətə gətirmək niyyətindəsən. Elə tərifləyirsən ki, sanki biz Yezidi tanımırıq. Onu elə ağızdolusu, canfəşanlıqla öyürsən ki, guya oğlunun bizim xəbərsiz olduğumuz üstün xüsusiyyətlərini aşkarlayıb, bilmədiklərimizi bizə öyrədirsən.

Guya Yezid heç də öz çirkin əməlləri ilə məşhur deyil və xalq onun azğın fikirlərini bilmir.

Yaxşı, əgər belədirsə de ki; «Yezid təhrik olunmuş itlərlə oynayır, quşbazdır. Gecə-gündüz pozğunluqda şöhrət tapmış əxlaqsız qadınlarla əylənir, cür-bəcür iyrənclik və haram dolu eyş-işrətə məşğuldur.” Bəli o, belə işlərə olduqca həvəsli, «bacarıqlı»dır.

Amma Həzrət Hüseyn (ə) qəzəblə dolu baxışlarla Müaviyəyə baxaraq, onun qatil, imansız əshabına əl taparsa rəhm etməyəcəyini söylədi. Müaviyə özünü itirərək məclisi tərk etdi.»[1]

ğ) «Müslim ibn Əqilin Mədinədə torpaq sahəsi var idi. Müaviyə Mədinə valisinə o sahəni zorla Müslimin əlindən almağa, ona cüzi miqdarda pul verib, razılaşmağa məcbur etmək üçün əmr verdi. Vali əmri yerinə yetirdi.

İmam Hüseyn (ə) bunu bildikdə Müaviyəyə kəskin ifadələrlə dolu məktub yazıb buyurdu: «Allaha həmd olsun! Müaviyə, sən hansı cəsarətlə Bəni-Haşim tayfasından olan bu cavana zor tətbiq edib, aldadırsan. Pulunu ondan geri al və torpağı Müslimə qaytar.» Müaviyə belədə etdi.»[2]

e) «Müaviyə ömrünün axır illərində avara və əyyaş oğlu Yezidi özündən sonra xəlifə etmək üçün var-gücü ilə çalışırdı. O, bilirdi ki, əgər oğlu üçün indi İmam Hüseynin (ə) bey`ətini alarsa, İslam dünyasının digər öncül şəxsiyyətləri də, ona itaət edib Yezidə beyət edəcəklər. Elə buna görə də, o, öz müşavirləri ilə birlikdə Mədinə şəhərinə gəldi.

Mədinədə olduqca təmtəraqlı ziyafət hazırlayan Müaviyə Bəni-Haşim tayfasını İmam Hüseyn (ə) də başda olmaqla oraya dəvət etdi.

---

1. Hürr Amili, «Vəsailüş-şiə», c. 2, səh. 704; «Əd-Dərəcatür-rəfiə», səh. 429; «Tarixi-Yəqubi», c. 2, səh. 231-232.
2. Məsudi, «Murucüz-zəhəb», c. 2, səh. 9; «Musuətü-kəlimatil-İmamil-Hüseyn (ə)», səh. 185-188.

O, Nəhrəvan döyüşündə qoşunun mühüm hissəsinə rəhbərlik edərək, son qələbə üçün böyük rol oynadı.[1]

b) Osmanın özbaşınalıqlarının əleyhinə xalq kütləsinin üsyan etdiyi zaman, onun evinə hücum edərək sorğu sualsız öldürmək istəyənlərin qarşısına məhz qardaşı imam Həsənlə (ə) birgə həzrət Hüseyn (ə) çıxdı. Və gözləri qəzəblə parlayan silahlı insanlardan qorxmayaraq, böyük cəsarətlə onların Osmanı evində öldürməsinə mane olmağa çalışdı.[2]

v) Müaviyə ilə bağlanan sülh müqaviləsinə sadiq qalan İmam Hüseyn (ə) eyni halda ona qarşı vüqar və cəsarətlə davranırdı. Keçən bəhslərimizdə ətraflı şəkildə işarə etdiyimiz kimi, o, Müaviyəyə yazdığı məktublarda «Mən sənin bu ümmətə hakim olmağından daha da böyük və qorxunc bir fitnə tanımıram.»- deyə yazır, ona aşkarcasına tə`nə vurub, qulaqburması verirdi.[3]

q) «Müaviyə məclislərin birində İmam Hüseynlə (ə) üz-üzə gəldikdə dedi: «Ey Əbu Abdullah, heç bilirsənmi ki, mən əshabımla birlikdə atanın sadiq dostlarını necə amansızlıqla öldürdüm? Və sonra isə onları necə hiyləgərliklə kəfənə büküb, namaz qılıb bastırdım?» (Müaviyə bu sözü İmamı (ə) qorxutmaq üçün söylədi).

---

1. İbn Səd, «Təbəqatül-Kübra», c. 5, səh. 182.
2. Məsudi, «Murucüz-zəhəb», c. 1, səh. 328.
3. «Tərcümətül-İmamil-Hüseyn (ə)», İbn Əsir, səh. 198; Hürr Amili, «Vəsailüş-şiə», c.2, səh. 706; «Tarixi-İbn Əsakir», səh. 203.

d) İmam Hüseynin (ə) sədəqə verərkən gizli verməsi, bəzən qapıya gələn dilənçini utandırmamaq üçün gah niqabla, gah da qapı arxasından əta etməsi onun necə də, möhtəşəm ədəb sahibi olmasından xəbər verir.[1]

**1. Cəsarət və şücaəti**

(وَمَن يُقَاتِلْ فِي سَبِيلِ اللّه فَيُقْتَلْ أَوْ يَغْلِبْ فَسَوْفَ نُؤْتِيهِ أَجْرًا عَظِيمًا)

«Allah yolunda vuruşaraq ölən və ya (düşmənə) qalib gələn kəslərə böyük mükafat verəcəyik.»[2]

İmam Hüseyn (ə) hər üç döyüşdə (Cəməl, Siffeyn və Nəhrəvan) Həzrət Əlinin (ə) kənarında olmuş, qəhrəmanlıq göstərib, böyük şücaət nümayiş etdirmişdir.

Hicri qəməri tarixi ilə 36-cı ildə baş vermiş Cəməl savaşında qoşunun böyük bir hissəsinin rəhbərliyini öhdəsinə alan Həzrət Hüseyn (ə) sərkərdə vəzifəsini xüsusi rəşadətlə yerinə yetirmişdir.[3]

O Siffeyn döyüşündə öz igidliyi ilə dillər əzbəri olmuşdu. Bu döyüşdə onun düşməninin zəbt etdiyi su yolunu yenidən fəth etməsi və İmam Əlinin (ə) "Bu zəfəri Hüseynin (ə) qəhrəmanlığı sayəsində əldə etdik" deyə, buyurması daim İslam tarixində ön plana çəkilir.[4]

---

1. «Biharül-ənvar», c. 43, səh. 189.
2. Nisa surəsi, ayə 74.
3. İbn Əsir, «Kamil», c. 3, səh. 167.
4. İbn Əbil Hədid, «Nəhcül-bəlağənin şərhi», c. 5, səh. 24, Ayətullah Şuştəri, «Xəsaisül-Hüseyniyyə», səh. 56.

Uşaqların ağıllı rəftarı nəticəsində səhvini anlayan kişi gülüb dedi: «Siz ikinizdə dəstəmaz əməlini doğru şəkildə əncam verdiniz. Mənim dəstəmaz almağım isə yanlış idi. Amma indi sizin alicənab hərəkətiniz ilə mən düzgün formada dəstəmaz almağı öyrəndim.»[1]

b) «Kasıb bir Mədinəli müsəlman, Osman ibn Əffanın yanına gəlib ondan kömək dilədi. Osman ona beş dirhəm verdi.

Kasıb dedi: «Ən səxavətli şəxsləri mənə göstər.»

Osman, İmam Həsən (ə), İmam Hüseyn (ə) və Abdullah ibn Cəfəri göstərərək dedi: «Bu cavanlara müraciət et.»

Kasıb kişi İmam Həsənin yanına gəlib ona əl tutmasını xahiş etdi. İmam (ə) kişiyə 50 dinar verdi.

Kişi sonra İmam Hüseynə (ə) müraciət etdi Həzrət Hüseyn (ə) də ədəbi riayət edərək özündən böyük qardaşının ehtiramına görə, ona bir dinar az yəni 49 dinar bağışladı.

Abdullah ibn Cəfər də, Həzrət Hüseyni özünə nümunə seçib kasıb kişiyə 48 dinar hədiyyə etdi.

Mədinəli kişi həm onların səxavətinə, həm də ədəb və nəzakətinə heyran qalaraq, əhvalatı Osman ibn Əffana danışıdı.

Osman dedi: «Bəli bunlar kimi alicənab və nəcabətli şəxslər heç yerdə tapılmaz. Çünki elm və anlayışı babalarının (Həzrət Məhəmmədin (s) ) sinəsindən irs apardılar. Və dəyərli hikmətə yetişdilər.»[2]

---

1. «Biharül-ənvar» c. 43, səh. 319.
2. Ibid. 333; «Əl-Ğarat», c. 2, səh. 695; Mamaqanı, «Tənqihül-əmal», c. 2, səh. 695; «İhqaqül-həqq», c. 11, səh. 241.

Kor olsun səni görməyən gözlər! Bir halda ki, sən həqiqətən də, onun yanındasan və ondan muğayatsan!»

Əziz oxucu, bir sözlə doğrudan da, imam Hüseyn (ə) bir «ilahi eşq» məktəbidir.

### 7. Ədəb və nəzakəti

(وَقُل لِّعِبَادِي يَقُولُواْ الَّتِي هِيَ أَحْسَنُ)

«(Ya Rəsulum!) Bəndələrimə de ki, «ən gözəl sözləri söyləsinlər»...»[1]

Sözsüz ki, Əhli-beyt (ə) öz gözəl xüsusiyyətləri ilə daim ən kamil insan nümunəsi olmuşdur. Həzrət Əbu Abdullah Hüseyn (ə) də alicənablığı, ədəb və nəzakətinə görə İslam dünyasında böyük rəğbətlə mədh edilir. Belə ki, onun hələ uşaqkən özündə əks etdirdiyi bu nəcib xüsusiyyətinə həmişə müsəlmanlar tərəfindən sitayiş edilmişdir. İmamın (ə) bu gözəl, dəyərli xasiyyətinə bir neçə nümunə gətiririk:

a) İmam Hüseyn (ə) hələ kiçik yaşlarında öz qardaşı ilə çay kənarından keçirdi. Onlar səhv şəkildə dəstəmaz alan bir kişi ilə rastlaşdılar. Kişi utandırmamaqla bərabər ona düzgün formada dəstəmaz almadığını anlatmaq məqsədi ilə olduqca nəzakətli bir yol seçdilər. Qardaşlar kişinin yanına gəlib, belə söylədilər: «Əmi, bax gör biz hansımız yanlış formada dəstəmaz alırıq?»

Sonra isə hər ikisi düzgün şəkildə dəstəmaz aldılar.

---

1. İsra surəsi, ayə 53.

Elə buna görədə İmam Hüseyn (ə) belə buyurur: «İlahi, kor olsun o gözlər ki, səni özünə hakim bilməyə və həmçinin necə də, bədbəxtdir o bəndə ki, sənə eşq məhəbbət bəsləməyə».[1]

İmam Hüseynin (ə) ibadi minacatları, həqiqətdə Allah hüzurunda izhar etdiyi «eşqnamə» ləridir. Məşhur «Ərəfə» duasını oxuyan hər kəs Allah müqabilində aciz və eyni halda aşiq bir qulun öz ağası ilə necə də raz-niyaz etdiyinin şahidi olur.

Bu duada, Allahına, «mən sənə müştaq və sənin aşiqinəm» «sən mənim arzumsan»-deyə, müraciət edən Hüseyn (ə) həmçinin öz «qəlbində Allahdan qeyrisinin eşq-məhəbbəti olmadığına» da təkid edir. O, əsl eşqin, həqiqi məhəbbətin Tanrıya məxsus olduğunu dəfələrlə vurğulayaraq buyurur: «İlahi, səni tanımayan şəxs nəyi tapmış olur, səni tapan insan isə nəyi itirmiş olur? Ey Allah, səndən başqasına razılaşan şəxs, hər bir şeydən məhrumdur!»

Bütün vücudunu Allah eşqi saran Həzrət Hüseyn (ə) sanki hər ləhzə onun varlığını daha da hiss edir və hər an ilahi gözəlliyini yaxından seyr edərək, öz sevgisini izhar edir: «Ey Böyük Allah bütün varlığı sənə bağlı olan bir şey sənin varlığına necə dəlil ola bilər? Sən nə vaxt gizli olmusan ki, insanları sənə doğru hidayət edən bir sübuta ehtiyac duyulsun? Nə vaxt uzaqlaşmısan ki, nişanə və əlamətlərin səni insanlara tanıtdırsın? Məndən ayrılmamısan ki, sənin hüzurunu istəyim? Gizli qalmamısan ki, səni aşkara çıxardım?

1 .«Ərəfə duası», səh. 6.

b) İbn Şəhr Aşub yazır: «İmam Hüseyndən (ə) soruşdular: «Nə üçün Allahdan bu qədər qorxursan?»

İmam (ə) buyurdu: «Yalnız bu dünyada Allahdan qorxan (və əməllərinə diqqət edən) insanlar qiyamət gününün (əzabından) əmin-amanlıqda olacaqlar.»[1]

İmamımızın (ə) Allah-taalaya əsl itaətkar qul olmasını özündə təcəssüm etdirən çox saylı minacatları da mövcuddur.[2]

### 6. Allah eşqi

(وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبًّا لِّلّهِ)

«Allaha iman gətirənlərin Ona olan məhəbbəti daha da şiddətlidir.»[3]

İmam Hüseyn (ə) Allah qarşısında məsuliyyət və qorxu hissi ilə bərabər Tanrıya olan eşqi, sevgisi ilə də məşhur idi. Necə ki, Qurani-Kərim mömünləri vəsf edərək buyurur: "Bizim ayələrimizə iman gətirənlər yalnız o şəxslərdir ki, «... öz Allahını qorxu və məhəbbətlə (ümidlə) səsləyirlər...»[4]

---

1. «Mənaqib», c. 4, səh. 68.
2. Şeyx Abbas Qumi, «Məfatihül-cinan», səh. 441; «Musuətü-kələmatil-İmamil-Hüseyn (ə)», səh. 170-171.
3. Bəqərə surəsi, ayə 165.
4. Səcdə surəsi, ayə 15-17.

İmam Hüseyn (ə) gülümsəyərək buyurdu: «Qardaşım, təkəbbür yalnız tək olan Allah-taalaya məxsusdur və Uca Tanrıdan qeyrisinə təkəbbürlü olmaq yaraşmaz. Amma o ki, qaldı mənim rəftarıma, məgər eşitməmisən ki, Allah buyurur: «İzzət Allaha və Peyğəmbərinə və mömünlərə məxsusdur?» (Yəni mən izzət və vüqar sahibiyəm, lakin təkəbbürlü deyiləm.)

## 5. Allah qorxusu

(إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاءُ)

«Bəndələri içərisində Allahdan ancaq alimlər qorxar.[1]

(Onlar elm sahibləri olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar)»

Mənəvi üstünlüklərin və İlahi əxlaqın şahı olan İmam Hüseynin (ə) olduqca dəyərli və hamımıza nümünə ola biləcək xüsusiyyətlərindən biri də, ona daim hakim olan Allah qorxusu idi. O, Böyük Yaradana olan sonsuz imanı nəticəsində həmişə Allah qarşısında məsuliyyət hissi daşıyır, Qüdrətli Xaliqi hər şeyə nazir görərək öz bəndəliyinə aciz şəkildə izhar edirdi.

a) İbn Səbbağ Maliki «Fusulül-mühimmə» adlı kitabında rəvayət edir ki, Həzrət Hüseyn (ə) həmişə namaz qılmaq istərkən qorxusundan rəngi saralardı. Bunun səbəbini ondan soruşduqda isə buyurdu: «Heç bilirsinizmi mən kimin qarşısında durub ibadət etmək istəyirəm?»[2]

---

1. Fatir surəsi, ayə 28.
2. «Fusulül-mühimmə», səh. 183.

a) «Bir qrup kimsəsiz, yoxsul adamlar bərabər oturaraq əski parçalarının üzərinə tökdükləri quru çörək qırıntılarını yeyirdilər. İmam Hüseyn (ə) onların yanından keçərkən onu da yeməyə dəvət etdilər. İmam (ə) fağırların dəvətini qəbul etdi və onlarla bərabər diz üstə əyləşib çörək qırıntılarından yeməyə başlayaraq buyurdu: «Şübhəsiz ki, Allah-taala təkəbbürlü (loğva) insanları sevmir.»[1] Yeyib qurtardıqdan sonra isə buyurdu: «Sizi evimə dəvət etsəm qəbul edərsinizmi?»

Dedilər: «Bəli.» İmam onları evinə apardı və möhtəşəm qonaqlıq verdi.»[2]

b) Şəhidlərin ağası Hüseyn (ə) bir dəstə yetim, zavallı uşağın yol kənarında yığışaraq quru çörək yediyini gördü. Uşaqlar İmamı (ə) gördükdə onu da birgə yeməyə çağırdılar. İmam (ə) uşaqların dəvətini mehribanlıqla qəbul etdi. Onlara qoşulub çörək yedi. Sonra onları ehtiramla evinə aparıb qonaq etdi. O, uşaqlara geyim və ərzaq da verdi. İmam (ə) buyurdu: «Bu balacalar çox səxavətlidir, çünki onlar əllərində olan yeganə azuqələrini mənimlə palyaşdılar.»[3]

v) Biyabanda yaşayan köçəri bir ərəb İmam Hüseynə (ə) yaxınlaşaraq əsəbi halda dedi: «Sən çox təkəbbürlü görünürsən?»

---

1. Nəhl surəsi 23-cü ayə.
2. «Təfsiri-Əyyaşi», c. 2, səh. 257; «Kitabüt-təvazö vəl-xəmul», səh. 142; Zəməxşəri, «Rəbiül-əbrar», səh. 210.
3. «İhqaqül-həqq», c. 11, səh. 430; Xarəzmi, «Məqtəl», səh. 155.

İmam Hüseyn (ə) yaxına gəlib buyurdu: «Sən azadsan və mən bu bağı da Allah yolunda sənə hədiyyə edirəm.»[1]

### 4. Təvazökarlığı

**(وَاخْفِضْ جَنَاحَكَ لِلْمُؤْمِنِينَ)**

«Mö'minləri qanadın altına al (iman gətirənlərə qarşı təvazökar olub yumşaq davran və onları himayə et)!»[2]

Diqqət etmək lazımdır ki, İlahi şəxsiyyətlərin ən ali mənəvi xüsusiyyətlərindən biri də, onların təvazökarlığıdır. Deməli İmam Hüseyn (ə) izzət, iftixar və vüqar imamı olduğu kimi, eyni halda təvazökarlıq, ürəyiaçıqlıq və şəfqət imamıdır. O, necə ki, digər üstün mənəvi, ruhani xislətləri ilə məşhurdur, öz təvazökarlığı ilə də həmişə müsəlman aləminin diqqət mərkəzində olmuşdur. O, heç vaxt digər insanlara laqeyd münasibət bəsləməmiş, qullar, yoxsullar və hətta uşaqlarla birlikdə əyləşib onlara qonaq olmuşdur.

Həzrət Hüseyn (ə) nəinki heç vaxt miskin insanlara etinasızlıq, hörmətsizlik etməmiş, həqiqətdə həmişə onlara xüsusi ehtiram və qayğıyla yanaşmışdır. Bununla da o, öz rəftarı ilə bütün bəşər övladına daim təvazökarlıq dərsi vermişdir. Bu barədə bir neçə rəvayət sizə təqdim edirik:

---

1. Xarəzmi, «Məqtəl», səh. 153; «İhqaqül həqq», c. 11, səh. 444.
2. Hicr surəsi, ayə 88.

İmam Hüseyn (ə) yəhudinin yanına getdi və qulun pulunu ödəyib, azad etmək istədi. Yəhudi Həzrət Hüseyni (ə) tanıdı. O, İmamın (ə) hörmətinə qulu pul almadan azad etdi. Belə olduqda İmam (ə) pulu da qula verdi.»[1]

ə) «Əbdürrəhman Səlami, İmam Hüseynin (ə) övladlarından birinə «Həmd» surəsini öyrətdi. Övladının «Həmd» surəsini əzbər oxuduğunu görən İmam (ə), Əbdürrəhmana min dinar pul, bir ovuc dürr hədiyyə verdi. Və buyurdu: «Bütün bunlar sənin işin müqabilində dəyərli deyildir.»[2]

j) Yəhya ibn Salim deyir: «İmamla (ə) birgə evə gəldim. Kənizi ona su verdi. İmam (ə) mehribanlıqla onun üzünə baxıb bir miqdar pul hədiyyə etdi və buyurdu: "Bununla ailənin ehtiyaclarını ödə. »[3]

z) Əbul Müəyyid, Həsən Bəsridən nəql edir ki, İmam Hüseynin (ə) bol bəhrəli bir bağı var idi. Günlərin birində İmam (ə) bağına baş çəkməyə getdikdə «Safi» adlı qulunun orada oturub nahar yediyini gördü. Qul hər dəfə özü üçün çörək kəsib götürdükdə yanındakı kimsəsiz itə də verir, onun da qayğısına qalırdı. Yeməyi qurtardıqda qul dedi: «Bütün aləmlərin ruzisini yetirən Uca Allaha şükürlər olsun! Ey mənim Allahım, ağamı və məni bağışla...»

---

1. «Mənaqib», c. 4, səh. 75.
2. «Mənaqib», c. 4, səh. 66, «Biharül-ənvar», c. 44, səh. 191; «Səfinətül-Bəhar», c.1, səh. 609.
3. İbn Səd, «Tərcümətül-imamil-Hüseyn (ə)», səh. 137-138.

Mən ona dedim: «Bir qızıl gülün nə dəyəri var ki, siz bunun üçün kənizi azad etdiniz?»

İmam (ə) buyurdu: «Allah-taala bizi belə tərbiyə etmişdir: Ənəs ibn Malik«Sizə xeyirxahlıq etdikdə siz də, ondan daha yaxşı xeyirxahlıq və daha üstün hədiyyə edin.»[1]

d) İmam Hüseyn (ə) evində namaz qılırdı. Elə bu vaxt yoxsul bir ərəb onun evinə gələrək, kömək istədi. İmam (ə) namazı qurtarıb Qənbər adlı xidmətçisinə buyurdu: «Hicazdan evimizin ehtiyaclarını ödəmək üçün gələn puldan bir şey qalıbmı?»

Qənbər dedi: «Yalnız dörd min dinar qalıb.»

İmam Hüseyn (ə) buyurdu: «Pulun hamısını buraya gətir. Bu şəxsin pula bizdən daha çox ehtiyacı var.»

